Ümummilli liderimiz Heydər Əliyev tərəfindən ölkənin təbii resurslarının güclü elmi və siyasi, institusional əsaslar üzərində mükəmməl şəkildə səfərbər olunmasına əsaslanan özünəməxsus inkişaf modeli formalaşdırılıb. İqtisadi artımın ilk növbədə sosial problemlərin həllinə və etibarlı sosial müdafiə sisteminin qurulmasına yönəldilməsi bu modelin əsas komponentləri sırasında yer alıb.

Sosial tərəqqinin Azərbaycan modeli

Ölkəmizdə müasir çağırışlara cavab verən dayanıqlı sosial müdafiə sistemi qurulub

2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyevin mükəmməl islahatlar kursu respublikanın iqtisadi potensialının gücləndirilməsində sürətli inkişaf mərhələsini şərtləndirməklə bərabər, yüksək sosial standartlara malik cəmiyyətin qurulmasına, sosial firavanlığın təminatına doğru mühüm addımların atılmasına zəmin yaradıb. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin həyatında yeni mərhələ başlanıb. İşğaldan azad edilmiş torpaqlarımızın bərpası, quruculuq, inkişaf, Qarabağdan məcburi köçkün düşmüş əhalinin orada məskunlaşdırılmasının təmin olunması növbəti əsas hədəflər sırasındadır. Bu hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlər həyata keçirilir. Bütün bunlar ölkəmizin dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir, reytinqini artırır. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır", - deyə bəyan edən Prezident cənab İlham Əliyevin bu tezisin uğurla gerçəkləşdirilməsi üçün qəbul etdiyi qərarlar ümumi inkişafın sosial rifah amilini də uğurla əhatə etməsi ilə nəticələnmişdir. Azərbaycan 2000-ci ildə, yəni xeyli gənc bir respublika olduğu dövrdə BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə qoşulmasına baxmayaraq, qısa müddətdə bu məqsədlərin reallaşmasında mühüm uğurlara nail olub. Bu uğurlar sırasında məqsədyönlü dövlət proqramları, kompleks tədbirlər nəticəsində yoxsulluq səviyyəsinin 5 faiz səviyyəsinə qədər azalması xüsusi vurğulanmalıdır. Ölkəmizin həmin məqsədlərin reallaşmasında, yoxsulluğun azaldılmasında müsbət təcrübəsi nəzərə alınmaqla Azərbaycan bu mötəbər qurumun 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində fəal iştirak edir. Digər tərəfdən, son 18 il ərzində ölkəmizdə minlərlə məktəb, yüzlərlə xəstəxana, tibb mərkəzi tikilib və təmir edilib, çoxsaylı yeni qəsəbələr salınmaqla 250 mindən çox məcburi köçkün mənzillə təmin olunub.

Son illərdə cənab Prezidentin imzaladığı müvafiq sənədlərə əsasən, aylıq sosial müavinət alanların sırasına beşdən çox uşağı olan ailələrdəki uşaqlar, Azərbaycan Prezidentinin aylıq təqaüdləri ilə təmin edilənlərin sırasına isə əmək pensiyası almaq hüququ olmayan birinci qrup əlillər, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində işləmiş şəxslər və Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən, həlak olmuş hərbi qulluqçuların ailə üzvləri də daxil edilib. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanların, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların, şəhid ailələrinin övladlarının təhsil xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi davam edir. Bu tədbirlər də sosial müdafiə sisteminin əhatə dairəsini daha da genişləndirib.

İqtisadiyyatın tələblərinə uyğun peşə hazırlığı və əlavə təhsilin təşkili ən önəmli aktiv məşğulluq tədbirlərindən biridir. Əmək bazarının tənzimlənməsində əhəmiyyətli məsələlərdən biri də gələcəkdə əmək bazarına daxil olacaq işçi qüvvəsinin, yəni gənc nəslin artıq bu gündən düzgün peşə və ixtisaslar üzrə istiqamətləndirilməsidir. Bu həm gənclərin gələcəkdə daha rahat şəkildə iş yerləri əldə etmələrində, həm də işəgötürənlərin işçi qüvvəsinə tələblərinin ödənilməsində mühüm rola malikdir. Bu məqsədlə Dövlət Məşğulluq Xidmətinin peşəyönümlü tədbirləri də davam etdirilib. Hər bir ölkədə demoqrafik proseslər əmək bazarına təsir edən ən ciddi amillər sırasındadır. Ölkəmizdə müsbət demoqrafik istiqamət kimi əhalinin daimi artımı müşahidə olunur. Bununla əlaqədar Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, nazirlik tərəfindən aidiyyəti dövlət orqanı və sosial tərəfdaşlarla əməkdaşlıq şəraitində "Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyasının (2016-2025-ci illər)" layihəsi hazırlanıb. Layihədə əksini tapan fəaliyyət prioritetləri ilk növbədə demoqrafik artımın əmək bazarına və məşğulluq siyasətinə təsirinin qiymətləndirilməsi əsasında müəyyən olunub.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin əhalinin sosial müdafiəsinə xüsusi diqqət və qayğısı, həmçinin sığorta-pensiya sisteminin inkişafını və bu sistemin islahatlarını daim diqqət mərkəzində saxlaması əksər ölkələrin sosial sahədə ciddi ixtisarlar aparmaq zərurəti ilə qarşılaşdığı bir zamanda ölkəmizdə pensiya proqramlarının vaxtında və tam icra edilməsinə əsaslı təminat verib. Eyni zamanda, dövlət başçısının ölkədə idarəçilik praktikasının mütərəqqi təcrübələrə və innovativ yanaşmalara, elmi-texnoloji yeniliklərə istinad şəraitində modernləşdirilməsi siyasətinə uyğun olaraq, 2003-cü ildən başlayan islahatlar nəticəsində Azərbaycanda beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya sistemi formalaşdırılıb. Azərbaycan Respublikası Prezidentinin 4 noyabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nda bununla əlaqədar yeni inkişaf istiqamətləri, bu sahədə qarşıda duran vəzifələr, prioritetlər və reallaşdırılacaq kompleks islahat tədbirləri müəyyən edilib. Konsepsiyada islahatların başlıca məqsədi kimi yeni sosial-iqtisadi şəraitə uyğun olaraq pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığına nail olunması, pensiya təminatının vətəndaşların sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etməsi göstərilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial müdafiə sistemində şəffaflığın tam təmin olunması barədə tapşırığının yüksək səviyyədə icrası bizim fəaliyyətimizin ana xəttini təşkil edir. Son illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək müqavilələrinin elektron qeydiyyat sistemi, ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi, Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi, avtomatlaşdırılmış pensiya təyinatı sistemi formalaşdırılıb. Bu sistemlər əmək və sosial müdafiə sahələrində idarəetmə mexanizmlərinin müasir texnologiyalar əsasında təkmilləşməsinə səbəb olmaqla bərabər, sosial müdafiə sistemində ünvanlılıq və şəffaflıq prinsiplərinin təmin olunmasına, digər tərəfdən əhalinin həssas kateqoriyalarına yönələn vəsaitlərin istifadəsində səmərəliliyin artırılmasına imkan verib. Mükəmməl proqram təminatları əsasında 2016-cı ilin 15 fevralından dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) tətbiqinə başlanıldı və dövlət sosial yardım sisteminin bütün prosedurlarının avtomatlaşdırılmış rejimdə həyata keçirilməsi təmin edildi. Bu gün Azərbaycanın innovasiyaların tətbiqi sahəsində mütərəqqi təcrübəsi kimi ümumən dünyada maraqla qarşılanır və bu sahələrdə bir sıra ölkələr, ölkəmizin təcrübəsini bölüşməyə maraq göstərirlər. Eyni zamanda, Azərbaycanın bu təcrübəsi mötəbər beynəlxalq qurumlar tərəfindən dəfələrlə yüksək dəyərləndirilib. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin avtomatlaşdırılmış sistemləri innovasiyaların tətbiqi üzrə qabaqcıl təcrübə nümunələri kimi BMT-nin "Ərəb ölkələri, Avropa və MDB regionlarında Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Əməkdaşlıq Mexanizmləri və Həllər" adlı portalına daxil edilib. Əmək və sosial müdafiə sisteminin innovativ yanaşmalar əsasında avtomatlaşdırılması əhali üçün müvafiq sahələrdə geniş elektron xidmətlər şəbəkəsinin qurulmasına, vətəndaşların həmin sahələrdə sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışına imkan yaradıb.

Azərbaycanda sosial müdafiənin tərkib hissələri kimi, hər biri ayrılıqda müvafiq qanunlar əsasında mövcud olmaqla sığorta-pensiya sistemi, bu sistemdə iştirak imkanı olmayanlar üçün dövlət sosial müavinət sistemi, digər tərəfdən işsizlik problemi ilə üzləşənlər üçün işsizliyə görə müavinət sistemi, sonra isə bunları tamamlayan, özlərindən asılı olmayan səbəblərdən yoxsulluq səviyyəsində olan ailələr üçün ünvanlı dövlət sosial yardımı sistemi fəaliyyət göstərir. Yəni bir tərəfdən sistemin əhatəliliyi təmin edilir, digər tərəfdən ayrı-ayrı kateqoriyadan olan şəxslərin eyni vaxtda iki istiqamətdə dəstəklənməsi həyata keçirilir ki, bu da həmin insanların təminat səviyyələrinin yaxşılaşdırılmasına xidmət edir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sosial inkişafı, vətəndaş rifahının təminatını ölkəmizdə 2021-2030-cu illəri əhatə edən yeni strateji mərhələdə də əsas inkişaf istiqamətlərindən biri kimi nəzərdə tutur. Dövlət başçısının uğurlu sosial-iqtisadi siyasəti nəticəsində son 18 ildə milli iqtisadiyyatın 3 dəfədən çox artması şəraitində sosial rifah səviyyəsinin yüksəldilməsinə xidmət edən mühüm irəliləyişlərə nail olunub. Əməkhaqları, pensiya, təqaüd və müavinətlərin, digər sosial ödənişlərin ardıcıl olaraq və dəfələrlə artımı təmin edilib. İqtisadi tərəqqi, sahibkarlığın inkişafı, qeyri-neft sektorunun genişlənməsi, yeni iş yerlərinin yaradılmasının daimi prosesə çevrilməsi, sosial müdafiə və aktiv məşğulluq proqramlarının geniş vüsət alması, sosial ödənişlərin davamlı artımı əhali gəlirlərinin də ildən-ilə çoxalması, işsizlik və yoxsulluğun kəskin şəkildə azalması ilə nəticələnib. Təsdiqlənmiş Milli Prioritetlərə əsasən, postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələdə davamlı və yüksək iqtisadi artımın dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməsi məqsədlərdən biri olacaq. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət bu mərhələnin səciyyəvi inkişaf istiqaməti kimi müəyyən olunub. Eyni zamanda iqtisadi inkişafla paralel vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılması, əməkhaqqı artımının əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması Milli Prioritetlərin əsas hədəflərdəndir. Həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən sosial xidmətlər sisteminin təmin olunması işləri də davam edəcək.

2020-ci ilin mart ayında Azərbaycan Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edərkən bildirib ki, "sosial sahədə aparılan islahatlar bu il davam etdirilir. Bu islahatlar çox genişmiqyaslı islahatlardır və nəticə etibarilə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlardır. Xüsusilə keçən il 4 milyondan artıq Azərbaycan vətəndaşının maddi rifahı yaxşılaşdırıldı, çox böyük sosial paket icra edildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqətmərkəzindədir. Bu il bu istiqamətdə növbəti addımlar atılır və atılacaq. Pensiyaların artırılması təmin edildi. Bu, bir daha onu göstərir ki, ötən il həyata keçirilən ciddi sosial paket bizim məqsədyönlü seçimimizdir. Əminəm ki, vətəndaşlarımızın sosial vəziyyəti ildən-ilə daha da yaxşılaşdırılacaqdır". Prezident İlham Əliyevin tapşırığı ilə sosial islahatların yeni mərhələsi kimi, növbəti sosial islahat paketi hazırlanıb. Bu paket çərçivəsində 2022-ci ilin əvvəlindən minimum pensiyada artım olacaq və pensiya ilə yanaşı, müavinətlər də artacaq. Onu da qeyd edək ki, 2018-2021-ci ildə minimum pensiya artımı 82%, orta pensiya artımı 60% olub. Müavinətlərdə də artımlar orta hesabla 2 dəfəyə yaxın olub. Ümumən, yeni ildən növbəti sosial islahat paketi çərçivəsində pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardımlar artacaq. Bu artımlar 2 milyondan çox insanı əhatə edəcək. Əlavə olaraq 1 milyon 100 mindən çox pensiyaçının pensiyası da gələn ildən indeksasiya nəticəsində artacaq. Pensiya islahatlarında məqsəd dövlət pensiya sisteminin davamlılığının qorunması ilə yanaşı, bu sistemdə yeni humanist yanaşmaların tətbiqi, pensiya təminatına əlçatanlığın artırılmasıdır. Son illərdə həmin istiqamətdə mühüm addımlar atılıb. Pensiya sistemində yeni humanist yanaşmaların tətbiqi davam edəcək.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun möhtəşəm tarixi Zəfər əldə etdiyi Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərin, erməni terrorundan zərər çəkənlərin sosial dəstəklə təminatı işlərini xüsusi vurğulamaq lazımdır. Əlillərin sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini diqqətə çatdırıb. Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı geniş vüsət alıb. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələri və müharibə əlillərinə 11 min, o cümlədən bu il 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. 2021-ci ilin planı üzrə artıq 530 mənzilin verilib. Ümumilikdə ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 9730 mənzil və fərdi ev, həmçinin müharibə əlillərinə 7200-dən çox avtomobil təqdim olunub. Şəhid ailələri və müharibə əlillərinə 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davamlı aparılır. Onlardan artıq 1900 mənzil qeyd olunan kateqoriyadan olan vətəndaşlara təqdim olunub. İndiyədək isə 11100 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev verilib. Dövlət başçısının müvafiq Sərəncamı 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin bu kateqoriyalardan olan şəxslərə verilməsini nəzərdə tutur. Möhtəşəm Zəfəri bizə yaşadan qəhrəman şəhidlərimizin ailələrinə və qazilərimizə mənzillərin təqdim edildiyi bu tədbirlər bir daha onu göstərir ki, dövlətimiz hər zaman bu kateqoriyadan olan vətəndaşların yanındadır və onlara öz dəstəyini göstərir.

İdarəçiliyin asanlaşdırılması və bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi də strateji xətt olaraq diqqət mərkəzindədir. Prezident 2018-ci ilin avqust ayında əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlərin göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaradılmışdır. Ümumilikdə, "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini açır. 2019-cu ilin may ayından Bakı və Abşeron rayonu üzrə artıq 5 DOST Mərkəzi açılıb. Qısa müddətdə DOST Mərkəzləri şəbəkəsi ölkəmizin bütün regionlarını, o cümlədən işğaldan azad edilmiş bölgələri əhatə edəcək. Şuşada da DOST Mərkəzinin yaradılacaq, ümumən işğaldan azad edilmiş rayonların hər birində belə mərkəzlər fəaliyyət göstərəcək. DOST Agentliyi və mərkəzləri Prezident İlham Əliyevin Fərmanına əsasən yaradılıb. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əmək, məşğulluq, əlillik, sosial təminat sahələri üzrə 152 növdə xidmətin "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipinə uyğun təqdim olunmasına imkan verib. DOST Mərkəzlərində artıq 500 mindən çox vətəndaşa xidmət göstərilib ki, xidmətlərdən məmnunluq səviyyəsi 97 faiz üzərindədir. DOST mərkəzləri Azərbaycanın yeni brendi olmaqla, bir çox ölkə bu innovativ yeniliyi öyrənməyə çalışır. Belə ki, hazırda 14 ölkə Azərbaycanın sosial sahədə mühüm innovativ yeniliyi olan DOST təcrübəsini özündə tətbiq etməkdə maraqlıdır.

Ölkədə əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastukturu müasir tələblərə uyğun qurulur, reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm işlər aparılır. 2019-2020-ci illərdə və cari ilin ötən dövründə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, müasir avadanlıqlarla təchiz olunmuş şəkildə istifadəyə verilib. Eyni zamanda, sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya imkanları daim genişləndirilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun dəstəyi nəticəsində yaradılan 2 saylı Uşaq Reabilitasiya Mərkəzi də ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün tibbi-sosial reabilitasiya imkanlarının artırılmasına, bu sahədə müasir standartlara uyğun infrastrukturun formalaşdırılmasına mühüm töhfə olub. Mərkəzin məqsədi tibbi, sosial, tədris-peşə reabilitasiya tədbirlərinin aparılması yolu ilə sağlamlıq imkanları məhdud uşaqların sosial stasunun bərpa edilməsini və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Burada il ərzində 600-dək uşağa bərpa müalicəsi xidmətləri göstərilir. Müəssisədə həmin kateqoriyadan olan uşaqların tibbi, psixoloji, tədris-peşə diaqnostikası təyin edilərək, fərdi reabilitasiya planları əsasında onların tibbi, sosial, tədris-peşə reabilitasiyası işləri aparılır. Onlar praktikada özünü doğrultmuş fizioterapevtik prosedurlardan, müalicəvi vannalardan və s. istifadə edilməklə, 15-dən çox növdə reabilitasiya xidmətləri, habelə sosial yanaşma əsaslı reabilitasiya tədbirləri ilə əhatə olunurlar. Onu da bildirək ki, hazırda Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 1 və 2 saylı Uşaq Reabilitasiya Mərkəzləri vardır. Ölkəmizdə uşaq reabilitasiya müəssisələri şəbəkəsinin genişləndirilməsi işləri çərçivəsində hazırda Qəbələ və Şəmkir rayonlarında da Uşaq Reabilitasiya Mərkəzləri inşa etdirilir. Azərbaycanın sürətli inkişafı və əldə edilmiş nailiyyətlər Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasi və iqtisadi kursun qanunauyğun nəticəsidir. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Düşünülmüş siyasət, siyasi və iqtisadi islahatlar, xalqla iqtidar arasında birlik, xalq tərəfindən ölkədə aparılan iqtisadi islahatlara dəstəyin verilməsi, liberal iqtisadiyyat, eyni zamanda, güclü hakimiyyət, sabitlik - budur bizim uğurlarımızı şərtləndirən əsas amillər".

Mustafa KAMAL,
"Respublika".